

## Oldos HAKSLİ

Heç elə bir çöhrə görmədim ki, gülümsəyəndə gözəlləşməyə.

***

Bəlkə, bu dünya da başqa bir dünyanın cəhənnəmidir.

***

Hamımızın eyni fikirdə olmağı yaxşı bir şey deyil. Yaradıcılığı ortaya çıxaran fikir ayrılıqlarıdır.

***

Dərdlərini göz yaşlarında boğmaq istəyənlərə söylə ki, dərdlər üzməyi bilir.

***

Düşünməyi bacarmayan insan hər zaman başqalarının köləsi olur.

***

Həyatı sizə gülməyi unutduracaq qədər ciddi qəbul etməyin.

***

Əgər fərqlisənsə, tənhalığa məhkum olursan. Tənha olanla acımasız davranırlar...

***

Təmiz qəlbli insanlar heç bir zaman rahat həyat yaşaya bilməzlər. Çünki özlərini başqalarının xoşbəxtliyi üçün fəda edərlər.

***

Hər şeyin üstünə gəldiyi-filan yox. Sadəcə sənin özünün çox üstünə düşdüyün şeylər var.

***

Şeytan ona uymağımız üçün yalvarır, yaxşı, bəs biz çox yaxşı insanlar olduğumuz üçünmü onu sındırmırıq?!

***

Yaxın gələcək, çox ehtimal ki, yaxın keçmişə bənzəyəcəkdir.

***

Bəlkə də, bir çox insan xoşbəxt olduğunu bilmədiyi üçün bədbəxtdir.

***

Təcrübə bir insanın başına gələnlər deyil, başına gələnlərin qoyduğu izlərdir.

***

Həyatın bu çirkin oyunlarına rəğmən, hələ gülməyi bacara bilən insan, demək, həyatın fəlsəfəsini anlamışdır.

***

İnsan xoşbəxtlik haqda düşünmək məcburiyyətində qalmasaydı, həyat nə qədər də əyləncəli olardı.

***

Bir arkadaşda sevmədiyim şey – diqqət çəkmək üçün yanındakı insanı sürəkli aşağılamağa çalışmasıdır.

***

Mübarizə-əsla bir təbiət qanunu deyil.

***

Eşqdə məntiq axtarmaq məntiqsizlərin işidir. Eşqdə məntiq olsaydı, sonda qırılacağını bildiyi bir qəlbin sevməyinə izn verməzdi.

***

İnsan nə zaman ki həyata məna qatmağa çalışır, həyat o zaman mənasızlaşır...

***

İnsan yıxılmaqdan deyil, yıxılanda "Haydı, qalx!" deyəcək bir dost səsi eşidə bilməməkdən qorxar.

***

BəIkə də, insan sevilmədiyindən deyil, sevgisinə layiq biri olmadığından tənhadır.

***

Vaxtının çox hissəsini pul qazanmaq və yığıb saxlamaqla keçirənlər sonda ən çox istədiklərinin satın alına bilməyəcək şeylər olduğunu anlarlar.

***

Gerçəklər gəzəyəndir; hər lağlağının altında yatar.

***

İnsan sabahını o qədər düşünür ki, bu günü əlindən qaçırtdığının heç fərqinə varmaz.

***

"Canımızı çəkib qopardılar bədənimizdən; ağzınacan nifrət doldurdular içimizə".

***

Məsud olmağın ən salamat yolu bir başqasını məsud etməkdir.